*Global Spectrum of Research and Humanities*
*ISSN: 3007-9136*
*Vol. 2 No. 1 (2025): Spring*

# Ali Məktəb Tələbələrinin Tolerantliq Tərbiyəsi

**Lalə Zahir qızı Allahverdiyeva**
Naxçıvan Dövlət Universiteti
https://doi.org/10.69760/ gsrh.01012025005

**Açar sözlər:**
tolerantlıq tərbiyəsi
mənəvi anlayış
şərq mədəniyyəti
təlim prosesi
auditoriyadankənar tədbirlər
fəallıq və müstəqillik
pedaqoji şərtlər

**Xülasə:**

Məqalədə tolerantlıq tərbiyəsi, onun mahiyyəti, tolerantlığın əsas göstəriciləri, tolerant şəxsiyyətin xüsusiyyətlərindən bəhs edilir. Təlim prosesində və auditoriyadan kənar şəraitdə tələbələrin tolerantlıq tərbiyəsinin formalaşdırılması imkanları qeyd olunur. Ali məktəb tələbələri ilə məqsədyönlü, sistemli və fasiləsiz işlərin aparılması tolerant, fəqət lazım gələndə, şərait tələb etdikdə, öz mövqeyini ortaya qoya bilən mübariz gənclərin yetişməsinə, formalaşmasına imkan verir. Problem baxımından Azərbaycan tarixi, fəlsəfə, ədəbiyyat, nitq mədəniyyəti, pedaqogika və psixologiya fənlərinin müxtəlif sahələrinin imkanları genişdir. Tələbələrdə tolerant şüuru, tolerant düşüncəni, tolerant təfəkkürü inkişaf etdirmək, onları tolerant davranışa yiyələndirmək və nəhayət, tolerant şəxs yetişdirmək üçün bir sıra pedaqoji şərtlər kompleks həyata keçirilməlidir. Bu kimi məsələlər məqalədə təhlilə cəlb edilmişdir.

# Tolerance Education of University Students

**Lale Zahir**
Nakhchivan State University
https://doi.org/10.69760/ gsrh.01012025005

**Keywords:**
tolerance education
moral concept
Eastern culture
teaching process
extra-curricular activities
activism and independence
pedagogical conditions

**Abstract:**

The article discusses the education of tolerance, its essence, the main indicators of tolerance, and the characteristics of a tolerant personality. It highlights the opportunities for developing students' tolerance in both the teaching process and extra-curricular settings. Engaging in targeted, systematic, and continuous work with university students enables the cultivation of resilient young individuals who are tolerant and capable of asserting their own positions when necessary or when circumstances demand it. In terms of addressing the issue, the various disciplines of Azerbaijani history, philosophy, literature, speech culture, pedagogy, and psychology offer extensive possibilities. In order to develop tolerant awareness, tolerant thinking, and a tolerant mentality in students, to instill tolerant behavior, and ultimately to cultivate

tolerant individuals, a complex set of pedagogical conditions must be implemented. Such issues are analyzed in the article.

**Vətəndaş Cəmiyyətinin Qurulması və Tolerantlığın Rolu**

Vətəndaş cəmiyyətinin qurulması üçün cəmiyyətin dəyərlərinə uyğun fərdin hazırlanması vacibdir. Belə bir fərdin ən əsas xüsusiyyətlərindən biri tolerantlıqdır. O, müxtəlif millətlərdən olan insanlara, onların adət-ənənələrinə, mədəniyyətinə və həyat tərzinə hörmətlə yanaşmağı bacarır. Avropanın bəzi ölkələrində yüksək insani və humanist dəyərlərin deqradasiyaya uğradığı dövrdə, Azərbaycan dünyaya tolerant bir ölkə olaraq, dostluq, qardaşlıq və birgəyaşama ruhunu nümayiş etdirir.

**Tarixi və Dövlət Səviyyəsində Tolerantlıq Ənənələri**

Ölkəmizdə dərin tolerantlıq ənənələri mövcuddur. Bu, təsadüfi deyil ki, Bakı 2009-cu ildə, Naxçıvan isə 2018-ci ildə İslam Mədəniyyətinin Paytaxtı kimi tanınıb. Azərbaycanda tolerantlığın möhkəmlənməsində ümummilli liderimiz Heydər Əliyevin rolu əvəzsizdir və bu siyasət hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkəmizdə tolerantlıq dövlət siyasətinin əsas elementlərindən biri sayılır və buna görə də bu istiqamətdə bir sıra beynəlxalq tədbirlər keçirilir.

**Multikulturalizm və Təhsil Sektorunun Rolu**

Cənab İlham Əliyevin məqsədyönlü siyasəti nəticəsində Azərbaycan qlobal miqyasda multikultural ölkə kimi tanınır. Bu ənənənin davamlılığını təmin etmək və gündəlik həyata inteqrasiya etmək üçün sistemli işlər görülür, burada ali məktəblərin rolu xüsusilə önəmlidir. Müasir şəraitdə yeni sosial mühit, sosial reallıq və cəmiyyətin ideologiyası mütəxəssis hazırlığına dair ali təhsilin qarşısına əhəmiyyətli vəzifələr qoyur. Azərbaycan hökuməti təhsil sahəsində çoxsaylı sənədlər qəbul edərkən, bu sənədlərdə ali məktəblərdə yetişdirilən gənc mütəxəssislərin tərbiyəsi məsələlərinə də xüsusi diqqət yetirilir.

**Tolerantlığın Mədəni və Fəlsəfi Kontekstdə Yeri**

Tolerantlıq Şərq mədəniyyətində geniş kök salmış hadisədir. O, qədimdən Şərq aləmində bir əxlaq, mənəviyyat məsələsi kimi önəmli yer tutmuşdur. Bu gün bu məsələyə hüquqi baxımdan yanaşılır. Dözümlü davranış tərzi cəmiyyətin cəhd göstərdiyi mühüm nailiyyət, tolerant münasibət isə onun açarıdır. Məşhur siyasi lider Mahatma Qandinin sözləri ilə desək, "Günümüzdə tək bir dinin deyil, müxtəlif dinlərin tərəfdarları arasında qarşılıqlı hörmət və dözümlülük zəruridir". Həqiqətən də, dinlər arasında dialoq qurmaq və qarşılıqlı hörmət nümayiş etdirmək müasir cəmiyyətdə demokratik stabilliyin təmin olunması üçün son dərəcə vacibdir.

Qərb mütəxəssislərinin də bu məsələ ilə bağlı maraqlı fikirləri mövcuddur. Məsələn, A. Morvan tolerantlığın əsasını fərdi mərhəmət və hörmətin təşkil etdiyini bildirərək, onu həyat üçün ideal və əhəmiyyətli prinsip kimi qəbul edir və insanlığın xilasını onun əsasında görür. P. Vanberq isə tolerantlığı fundamental mənəvi dəyərlərdən biri sayır və vurğulayır ki, fərdi və ictimai həyatımızın formalaşması onun ətrafında mümkün ola bilər.

**Tolerantlığın Tərbiyəsi və Onun Tətbiq Yolları**

Tolerantlığın ən vacib əlamətlərindən biri, onun mövcud olmadığı halda qarşılaşa biləcəyimiz faciəvi nəticələrdir. Buna görə də, P. Nikolson tolerantlığı həm böyük bir nemət, həm də insanların ən önəmli fərqləndirici xüsusiyyəti kimi qiymətləndirir. K. Mur isə hesab edir ki, tolerant insanın düşüncəsi müxtəlif ideyaların qarşılıqlı təsirinə açıqdır. Bu fikirləri K. Popperin "Tolerantlıq və intellektual məsuliyyət" məqaləsində də görmək mümkündür; o, elmi müzakirələrin məqsədinin debatlarda qələbə qazanmaq deyil, həqiqətin tapılması və yaxud ona yaxınlaşmaq olduğunu vurğulayır.

Tolerantlıq haqqında ilkin düşüncələr və təəssüratlar ailə mühitində yaranır, lakin sonrakı dövrlərdə, xüsusilə təlim prosesində, tolerantlığın mahiyyəti barədə daha əhatəli fikirlər ümumtəhsil və ali məktəb mərhələlərində formalaşır. Tolerantlığın inkişaf etdirilməsi üçün müsbət yanaşma tərzinə üstünlük verilməlidir. Əvvəlcə, ali təhsil müəssisələrinin müəllimləri bu müsbət yanaşmanı mənimsəməli, daha sonra isə tələbələrdə bu əhəmiyyətli keyfiyyəti formalaşdırmalıdırlar.

**Pedaqoji Yanaşmalar və Auditoriyadankənar Tədbirlər**

Tolerantlığın tərbiyəsi prosesində tətbiq olunan yanaşma metodları mühüm rol oynayır. YUNESKO-nun səyləri nəticəsində "tolerantlıq" beynəlxalq termin statusu qazanmışdır. B. S. Qerşunskinin fikrincə, insan münasibətlərində tolerantlıq, iyirmi birinci əsrdə təhsilin ən vacib strateji vəzifələrindən biridir. Tolerant şüurun, düşüncənin və təfəkkürün formalaşdırılması, müxtəlif dinlərə, xalqlara və millətlərə qarşı dözümlülüyün və sülhsevərliyin təbliğ edilməsi Azərbaycan təhsil sistemində prioritet məsələdir. Hətta bəzi pedaqoqlar (məsələn, V. A. Tişkov və digərləri) "tolerantlıq pedaqogikası"nın yaradılmasına ehtiyac olduğunu bildirirlər.

Ali məktəblərdə tələbələrində tolerantlığın formalaşdırılmasının qarşısında aşağıdakı əsas məqsədlər dayanır:

- Tələbələrdə öz şəxsiyyətinə dəyərli münasibətin formalaşdırılması, kommunikativ fəaliyyət vasitəsilə onun yaradıcı fəaliyyətinin inkişaf etdirilməsi;

- Əməkdaşlıq əsasında və tolerant şəxsiyyət olmaqda ətraf aləmlə qarşılıqlı münasibətlərin qurulmasına hazırlığın təmin edilməsi.

Həmin məqsədə çatmaq üçün bir sıra vəzifələrin reallaşması vacibdir:

- Tələbənin özünü yaradıcı ifadə etməsi;

- Təlim prosesində tələbə şəxsiyyətinin özünü reallaşdırması üçün şəraitin yaradılması;

- Tələbə qrupunda gənclərin möhkəm tellərlə bir-birinə bağlanmasının təmin edilməsi, onları etibarlılıq, qarşılıqlı yardım və hörmət əsasında birləşdirmək;

- Tələblərin ümumbəşəri dəyərlərlə, mədəniyyətlərlə tanış edilməsi;

- Ailəyə qayğı hissinin yaradılması və ailə ənənələrinin qorunub saxlanmasının təmin edilməsi.

Ali məktəb tələbələri ilə məqsədyönlü, sistemli və fasiləsiz işlərin aparılması tolerant, lakin lazım gəldikdə öz mövqeyini ortaya qoya bilən mübariz gənclərin yetişməsinə imkan verir. Problem baxımından Azərbaycan tarixi, fəlsəfə, ədəbiyyat, nitq mədəniyyəti, pedaqogika və psixologiya fənlərinin müxtəlif sahələrinin imkanları genişdir.

**Təlim Prosesində Tolerantlığın İnkişafı**

Təlim prosesində tələbələrdə tolerant şüurun, tolerant təfəkkürün və tolerant davranışın formalaşdırılması, tolerantlığın müxtəlif növləri barədə məlumatlılığın artırılması və onlarda şəxsiyyətlərarası tolerantlığa, dini tolerantlığa, etnik tolerantlığa, pedaqogik tolerantlığa, yaş tolerantlığına, irqi tolerantlığa dair tələbatın yaradılması üçün təlim motivləri özünəməxsus rol oynayır. Mühazirə və seminar dərslərində tələbələrin şüurlu və fəal olmaları başqaları ilə münasibət qurmağa yönəldikdə, sosial motivlər ön plana çıxır. Tələbələrdə tolerantlığın inkişafı, psixologiyanın əsas diqqət mərkəzində olan insanların bir-birini anlama və qavrama məsələsi ilə sıx bağlıdır. Gənc oğlan və qızların, həm bir-birini, həm də müxtəlif millətlərdən, etnik qruplardan, fərqli irq və cinsə mənsub şəxsləri qavrama və anlama prosesi inkişaf etdikcə, onların aralarındakı ünsiyyət də formalaşır.

Bu baxımdan tolerantlığın tərbiyəsində psixologiya və pedaqogika fənləri zəngin material təqdim edir. Psixologiya sahəsində "İctimai münasibətlər və şəxsiyyət", "Şəxsiyyət və fəaliyyət", "Tələbatlar", "Motivlər", "İnsanların bir-birini qavraması və anlaması", "Mənlik şüuru", "Özünü qiymətləndirmə və iddia səviyyəsi", "Şəxsiyyətin inkişafında ünsiyyətin və qarşılıqlı münasibətin rolu", "Davranışın dinamik xarakteristikası", "İnsanların qarşılıqlı münasibətləri və ünsiyyəti", "Ailədə psixoloji uyğunluq", "Ailədaxili münaqişələr, böhranlar və onların aradan qaldırılması", "Ailədaxili ünsiyyət" kimi mövzular geniş şəkildə müzakirə olunur. Bu dərslər vasitəsilə tələbələr ailədaxili ixtilafların mənbə, məzmun və forma baxımından fərqli olduğunu və həyatlarında onlarla rastlaşacaqlarını öyrənirlər.

**Canlı Müzakirələr və Diskussiyaların Təsiri**

Təhlillərdən görünür ki, təlim prosesində tələbələrin canlı müzakirələrə, diskussiya və debatlara cəlb edilməsi onların fəallığını, idrak müstəqilliyini və idraki yaradıcılığını artırmaqla yanaşı, tolerant şüurunu zənginləşdirir və tolerant təfəkkürü inkişaf etdirir. Nəticədə, tolerant davranış təcrübəsinə nail olunur. Tələbə-tələbə və müəllim-tələbə münasibətlərinin düzgün qurulması, şəxsiyyətlərarası ixtilafların qarşısının alınması, aradan qaldırılması və ya həllində tolerantlığın özünəməxsus rolu vardır. Tolerantlıq dözümlülük deməkdir; lakin dözümlü, təmkinli, hövsələli və səbirli olmaq, özünü saxlamağı bacarmaq, heç də hər cür həqarətə, zorakılığa, fiziki təzyiqə qatlaşmaq və ya özünə qarşı alçaldıcı münasibət göstərmək demək deyil. Bəzilərinin qənaətinə görə, tolerantlıq itaət deməkdir; əslində isə tolerantlıq, dözümlülük, mütilik və itaət deyil, mübarizə deməkdir. Pisliklərə, kobudluğa, ədalətsizliyə, prinsipsizliyə qarşı barışmazlıq və üsyan olaraq qiymətləndirilir. Bu mənada, ali məktəb tələbələrinin tolerantlıq xüsusiyyətlərinin formalaşması müasir günümüzdə mühüm əhəmiyyət kəsb edir.

**Auditoriyadankənar Tədbirlər və Tolerantlığın Təşviqi**

Tolerantlıq fikirlərinin formalaşması auditoriyadankənar şəraitdə də həyata keçirilir. Ali məktəbdə auditoriyadankənar işin müxtəlif formaları – söhbətlər, müzakirələr, diskussiyalar, disputlar, görüşlər, tematik və ədəbi-bədii axşamlar, ekskursiyalar, yürüşlər, kinofilmlərə, teatr tamaşalarına, sərgilərə baxışlar, müsabiqələr, dəyirmi masa ətrafında fikir mübadiləsi, “Şən və hazırcavablar klubunun” çıxışları, tarixi günlərə (Respublika, Müstəqillik, ümummilli lider Heydər Əliyevin ildönümü, Ordu günü, Novruz bayramı, Yeni il), həmçinin Qara yanvar, soyqırımın anım günləri, 44 günlük Vətən müharibəsi, “Dəmir yumruq” mübarizəsi və digər tədbirlər təşkil olunur.

Tədbirlərin rəngarəngliyi diqqət mərkəzindədir. Məsələn, “Müəllim-tələbə münasibətlərində tolerantlıq” mövzusunda disput; “Sevənlərin qarşılıqlı münasibətlərində tolerantlıq” mövzusunda dəyirmi masa; “Səbir kasası daşanda...” mövzusunda diskussiya; “Tolerant şəxs: o kimdir?” və “Tolerantlığın dərəcəsi” mövzularında söhbətlər təşkil oluna bilər. Auditoriyadankənar tədbirlərin keçirilməsi zamanı, tolerantlıq, səbir, hövsələ, dözümlülük və digər əlaqəli məsələlərə aid məlumatların diqqət mərkəzinə gətirilməsi iki şəkildə həyata keçirilə bilər:

- Tədbir (söhbət, mühazirə, disput, müzakirə və s.) bilavasitə tolerantlığa həsr edilməlidir.
- Tədbir hər hansı bir problemə həsr olunmalıdır; həmin məsələlər söhbət, müzakirə, disput, görüş, dəyirmi masa zamanı və şəxsiyyətlərarası münasibətlərdə tolerantlıq məsələlərini yada salmaq, mütəxəssislərin fikirlərindən və özünütərbiyə təcrübəsindən nümunələr gətirmək yolu ilə təqdim olunmalıdır.

Qruplarda auditoriyadankənar tədbirlərin yaddaşlarda qalıcı təsir bağışlaması üçün tədbirlərin sayı yox, səmərəliliyi əsas götürülməlidir. Məqsəd, tələbələrdə tolerant şüur, tolerant düşüncə və tolerant təfəkkürün inkişaf etdirilməsi və nəticə etibarilə onların tolerant davranış təcrübəsinə yiyələnməsidir.

**Yekun Nəticə**

Real həyatda insanlar arasında münasibətlər həm müsbət, həm də mənfi yanaşmalara əsaslanır. Müsbət yanaşma tələbələrin həm öz həmkarlarına, həm də onlardan və müəllimlərlə qarşılıqlı hörmətin vacibliyini nəzərdə tutur. Burada diqqət tələbələrin bir-birinin nöqsanlarına və səhvlərinə deyil, onların pozitiv keyfiyyətlərinə, hərəkətlərinə, bacarıq və qabiliyyətlərinə yönəldilməlidir. Belə münasibətlərin qurulması tələbələrin özünə inamını artırır, təşəbbüskarlığını, fəaliyyətini və müstəqilliyini gücləndirir.

Tolerantlığın inkişaf etdirilməsi üçün təlim prosesində və auditoriyadankənar tədbirlərdə təqdim olunan imkanlardan yararlanmaq lazımdır. Tələbələr sistemli və məqsədyönlü təlim fəaliyyətinə qoşulmalı, tolerantlıq mövzularının müzakirəsində fəallıq və müstəqillik nümayiş etdirməlidirlər.

Nəticə etibarilə, tələbələrdə tolerant şüur, tolerant düşüncə və tolerant təfəkkürün inkişaf etdirilməsi, onların tolerant davranışları mənimsəməsi və nəhayət tolerant şəxsiyyət kimi formalaşması üçün müxtəlif pedaqoji şərtlərin kompleks şəkildə tətbiq olunması zəruridir.

**İstifadə edilmiş ədəbiyyat:**

Abdulla, K. (2015, May 1). Azərbaycan multikulturalizminin siyasi banisi: [Ümummilli lider Heydər Əliyev haqqında]. *Azərbaycan*, p. 3.

Bədəlov, Ə. (2015, April 22). Azərbaycanın mədəniyyətlərarası dialoq mərkəzinə çevrilməsi ölkəmizin beynəlxalq aləmdə artan reytinqinin göstəricisidir. *Xalq qəzeti*, p. 1.

Hacıyeva, M., & Alışova, N. (Eds.). (2016). *Multikulturalizm Azərbaycanın həyat tərzidir: metodik tövsiyələr* (K. Tahirov, Ed.). Bakı: M.F. Axundov adına Azərbaycan Milli Kitabxanası.

Elmanoğlu, S. (2006, February 15). Dini sivilizasiyaların qovuşduğu tolerant məkan: Azərbaycan milli azlıqlara göstərilən həssas münasibət baxımından hətta bəzi inkişaf etmiş ölkələri də geridə qoyur. *Azərbaycan*.

İlyasov, R. (2015, May 27). İdman və multikulturalizm: "Bakı 2015" Avropa Oyunları. *525-ci qəzet*, p. 4.

Hüseynov, S. (2013). *Azərbaycanda dini tolerantliq mədəniyyəti: tarix və müasirlik*. Bakı.

Nurməmmədov, R. (2013, August 22). Tolerant mühiti ilə seçilən Oğuz rayonu: dini və milli dözümlülükdə nümunəvi bölgədir. *525-ci qəzet*.

Əzizov, X. (2015, March 4). Multikulturalizm, tolerantlıq: Azərbaycanın hər bir vətəndaşının həyat tərzinə çevrilib. *Azərbaycan*, p. 4; *Xalq qəzeti*, p. 3.

gizi Allahverdiyeva, L. Z. (2023). Formation of research competencies in teachers-undergraduates. *3i: Intellect, Idea, Innovation-интеллект, идея, инновация*, (1), 238-242.

Gizi, A. L. Z. (2016). Formation possibilities of ideological-confidence upbringing of school children on the sample of geniuses. *Евразийский Союз Ученых*, (3-2 (24)), 92-95.

Received: 01.02.2025
Revised: 02.02.2025
Accepted: 05.02.2025
Published: 10.02.2025